AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

6 FEVRAL 2019-cu il ÇƏRŞƏNBƏ № 29 (6356) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Prezident İlham Əliyev Formula 1 Qrupunun baş icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Keri Azərbaycana növbəti səfərindən məmnunluğunu ifadə edərək bildirdi ki, Formula 1 çərçivəsində ötən il keçirilən 21 yarışın təhlili nəticəsində Bakıda keçirilən bu yarış ən yaxşı yarış hesab edilib.

Dövlətimizin başçısı Bakıda keçirilən Formula 1 yarışına yüksək qiymətin verilməsindən məmnunluğunu ifadə etdi. Ölkəmizə gələn turistlərin sayının ildən-ilə sürətlə artdığını deyən Prezident İlham Əliyev ötən il xarici turistlərin Azərbaycanda iki milyard dollardan çox vəsait xərclədiklərini qeyd etdi və bildirdi ki, yarım milyarda yaxın tamaşaçı auditoriyasına malik olan Formula 1-in Bakıda keçirilməsi ölkəmizə turist axınının təmin olunması işinə böyük töhfə verir. Dövlətimizin başçısı qeyd etdi ki, bütün bunlar, öz növbəsində, Azərbaycanda turizm sənayesinə cəlb olunmuş kiçik və orta sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradır, eyni zamanda, dünyada daha çox insan Azərbaycan haqqında məlumat alır. Beləliklə, ölkəmizdə Formula 1 yarışlarının keçirilməsi həm Azərbaycanın dünyada təqdimatı, həm də eyni zamanda, iqtisadi mənfəət baxımından böyük əhəmiyyət daşıyır.

Çeyz Keri dövlətimizin başçısının fikirləri ilə tam şərik olduğunu vurğulayaraq qeyd etdi ki, bu yarışı izləmək üçün Bakıya gələn insanlar paytaxtımızda gördüklərini yüksək qiymətləndirir və Bakını çox sevdiklərini bildirirlər. Çeyz Keri bildirdi ki, Formula 1 yarışının Azərbaycanda keçirilməsi ölkəyə potensial turistlərin cəlb olunması ilə yanaşı, eyni zamanda, Bakının dünyada daha çox tanınması işinə də öz töhfəsini verir.

Görüşdə Bakıda təşkil edilən İrimiqyaslı idman yarışlarının keçirilməsinin ölkəyə faydalarıadlı 3-cü beynəlxalq konfransın əhəmiyyətinə toxunuldu, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Prezident İlham Əliyev Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Moskvanın və bütün Rusiyanın Patriarxı Kirilli qarşıladı.

Sonra dövlətimizin başçısı Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə söhbət etdi.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

-Zati aliləri, Sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram. Mən Sizi yenidən görməyimə çox şadam. Fürsətdən istifadə edərək, ilk növbədə, Sizi patriarx tacqoyma mərasiminin 10 illiyi münasibətilə təbrik etmək istərdim. Mənə çox xoşdur ki, Siz bu əlamətdar hadisədən az sonra bizim ölkəmizə səfər etmisiniz. Biz bunu Azərbaycana hörmət əlaməti hesab edirik. Həmçinin Sizə demək istəyirəm ki, Azərbaycanda Sizə, Sizin fəaliyyətinizə böyük hörmətlə yanaşırlar. Sizi Azərbaycanda tanıyırlar. Siz ilk dəfə deyil ki, bizim ölkəmizə gəlirsiniz. Sizə dərin hörmət bəsləyirlər. Dünyada təhlükəsizliyin, əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi işində Sizin rolunuz bütün dünyada, o cümlədən bizim ölkəmizdə çox yüksək qiymətləndirilir. Siz dinlərarası dialoqun, müxtəlif konfessiyaların, müxtəlif millətlərin, ölkələrin nümayəndələri arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsi işində çox mühüm rol oynayırsınız. Biz də Azərbaycanda Sizin işlərinizi, sözlərinizi çox diqqətlə izləyirik. Əlbəttə, bir daha qeyd etmək istərdim ki, Sizin bütün fəaliyyətiniz öz xalqınıza xidmət işinə yönəlib. Həmçinin qeyd etmək istərdim ki, Sizin sözləriniz, dərin biliklərə, prinsipial mövqeyə əsaslanan müdrik sözləriniz gənclərin ənənəvi dəyərlər ruhunda tərbiyə edilməsində çox mühüm rol oynayır. Əlbəttə, bizim üçün çox xoşdur ki, Siz bizim ölkəyə çox xeyirxah münasibət bəsləyirsiniz. Artıq qeyd etdiyim kimi, Siz ilk dəfə deyil ki, Azərbaycana gəlirsiniz və Sizin budəfəki səfəriniz də münasibətlərimizin - həm dinlərarası əməkdaşlıq sahəsində, həm də bütövlükdə çox uğurla və dinamik inkişaf edən Rusiya-Azərbaycan əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcək. Bizdə qarşılıqlı etimad səviyyəsi prezidentlərdən başlamış adi vətəndaşlara qədər bütün səviyyələrdə çox yüksəkdir. Demək istərdim ki, keçən il rekord sayda - 900 minə yaxın rusiyalı Azərbaycana səfər edib. Bu, onu göstərir ki, insanlar və ölkələr arasında münasibətlər ən yüksək səviyyədədir. Ona görə ki, onlar özləri ni evdəki kimi hiss edir, buraya yaxşı niyyətlərlə gəlir və burada onlara doğma münasibət bəsləyirlər.



**(davamı 2-ci səhifədə)**

### Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xocalı soyqırımı iki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Bu qanlı faciədən 27 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücuma keçmiş, bütün beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq normalarını pozaraq oraya zirehli texnika yeritmiş, şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Ermənistan silahlı qüvvələrinin mühasirəsində qalmış şəhər sakinlərindən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca öldürülmüş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

Xocalı soyqırımını törətməklə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal etmişdir. Bunun nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır. Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran təkzibolunmaz tarixi gerçəklikdir.

BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Şurası Parlament Assambleyasının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bu günədək beynəlxalq hüququn normaları və prinsipləri, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmamışdır.

“Xocalıya ədalət!” kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, bəşəriyyət əleyhinə bu cür ağır cinayətə beynəlxalq miqyasda hələ hüquqi qiymət verilməmişdir.

2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu torpaqlarımızın bir qismini işğaldan azad etmiş, uğurlu Naxçıvan əməliyyatı ilə 11 min hektar ərazi nəzarətimizə keçmişdir. Ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz vardır. Mövcud status-kvo qəbuledilməzdir və Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızdan çıxarılması tələbi daim gündəmdədir.

Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

Xocalı faciəsinin iyirmi yeddinci ildönümü ərəfəsində şəhidlərin xatirəsini dərin hüznlə yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 fevral 2019-cu il.**

### E.R.Salahovun Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**
Elşən Rövşən oğlu Salahov Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 fevral 2019-cu il.**

### Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumölkə teleradio yayımçılarının xarici ölkələrdə yayımının təşkilinə dövlət dəstəyi verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ümumölkə teleradio yayımçılarının beynəlxalq informasiya məkanında əhatə dairəsinin genişləndirilməsi, onların ölkə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və Azərbaycan xalqının mədəniyyətinin və milli-mənəvi dəyərlərinin təbliği sahəsində fəaliyyətinin gücləndirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumölkə teleradio yayımçılarının peyk vasitəsilə xarici ölkələrdə yayımını təşkil etmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinə 2,0 (iki) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 fevral 2019-cu il.**

### Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycanın 12 şəhər və rayonunda 237 çoxmənzilli binanın lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.64-cü bəndində göstərilmiş məbləğin 40,0 (qırx) milyon manatı bu Sərəncama əlavə edilmiş siyahıya uyğun olaraq şəhər, rayon icra hakimiyyətlərinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 fevral 2019-cu il.**

*Sərəncama əlavə edilmiş siyahı qəzetin 2-ci səhifəsində dərc olunur.*

# Prezident İlham Əliyev Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə görüşüb

(əvvəli 1-ci səhifədə)

Həmçinin qeyd etmək istərdim ki, keçən il Rusiya və Azərbaycan prezidentləri arasında altı görüş olub. Düşünürəm ki, bu da bizim münasibətlərimizin mahiyyətini və xarakterini, yaxınlığımızı əks etdirən rekord göstəricidir. Əlbəttə, Vladimir Vladimiroviç Putinin Azərbaycana səfəri və mənim Rusiyaya səfərim bizim münasibətlərimizin daha da möhkəmlənməsi işində çox mühüm rol oynayıb. Düşünürəm ki, bizim münasibətlərimiz qonşular arasında münasibətlərə nümunə ola bilər. Bizi tarixi baxımdan bağlayan səbəblər çoxdur və bu gün - biz bütün istiqamətlərdə fəal qarşılıqlı əlaqə saxladığımız bir vaxtda bu əməkdaşlıq, əlbəttə, bizim regionda, Qafqazda sülhün möhkəmlənməsi işində xüsusi əhəmiyyət kəsb edir. Buna görə də biz dövlətlərarası münasibətlərin bütün palitrasına nəzər salanda, əlbəttə, müsbət dinamika görürük. Bu baxımdan, Sizin bugünkü səfəriniz xüsusi rol oynayır.

Ölkəmizə səfər etdiyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirmək və nəcib işimizdə uğurlar arzu etmək istərdim.

* * *

**Moskvanın və bütün Rusiyanın Patriarxı KİRİLL dedi:**

-Çox hörmətli cənab Prezident, mən Sizinlə görüşmək imkanına görə təşəkkür edirəm. Azərbaycana səfər mənim üçün hər zaman mühüm mənəvi-mədəni hadisədir. Zəngin və qədim tarixi olan, mürəkkəb sivilizasiya qovuşuğunda yerləşən ölkəniz həm ətraf xalqların müdrikliyini, həm də əlbəttə ki, özünün sadə olmayan, amma şübhəsiz, xalqı gözəl mədəniyyət və mənəviyyatla zənginləşdirən tarixi təcrübəsini əxz edib. Mən Azərbaycana səfər edərkən həmişə dinlərarası münasibətlərin yüksək səviyyəsinə diqqət yetirirəm. Həm də bu münasibətlər yalnız hansısa rəsmi səviyyədə göstərici deyil. Bütün bunlar sadə insanların həyatına birbaşa aiddir. Azərbaycandakı pravoslavlar da müsəlman əksəriyyəti kimi bütün imkanlardan istifadə edirlər. O cümlədən Azərbaycanda millətlərarası, dinlərarası sülhün möhkəmlənməsində həm də çox müsbət işlər görən dostum şeyxülislam Paşazadənin rolunu xüsusi qeyd etmək istərdim. O, həm də şübhəsiz rus kilsəsi ilə təkcə Azərbaycanın müsəlmanları ilə deyil, həm də Qafqazın ali dini rəhbəri olduğuna görə Rusiya müsəlmanları ilə münasibətlərin inkişafında böyük işlər görür. Biz də onun sülhməramlı rolunu, həm də dinlərarası münasibətlər sahəsində mürəkkəb məsələləri həll etmək bacarığını çox yüksək qiymətləndiririk.



Azərbaycanda pravoslav kilsəsinin vəziyyəti ilə əlaqədar Sizə xüsusilə təşəkkür etmək istərdim. Həmişə zati-müqəddəsləri Aleksandr ilə görüşəndə o, bu münasibətləri çox nikbin təsvir edir və mən dəqiq bilirəm ki, bu, reallıqdır və həqiqətən belədir. Azərbaycanda yaşayan pravoslavlar heç bir narahatlıq hiss etmirlər. Onlar öz ölkələrinin həm vicdanlı vətəndaşlarıdır, eyni zamanda, pravoslavdırlar. Onları həm dini əqidələrinə, həm də ənənəyə görə tarixi vətəni - Rusiya ilə bağlayan çox şey var.

Ölkələrimiz arasında münasibətlərin inkişafına Azərbaycan çox sanballı töhfələr verir. Sizin bu münasibətlərin inkişafına xoş məramınız, Sizin səmimiyyətiniz bizim xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Bir məqamı da vurğulamaq istərdim ki, bu gün Moskvada, ümumiyyətlə, Rusiyada Sizin xalqınızın çoxsaylı övladları yaşayır. Onlar müasir Rusiyanın həyatında - həm biznes sahəsində, həm də mədəniyyət aləmində mühüm rol oynayırlar. Moskva şəhərinin müsəlman və pravoslav icmaları arasında münasibətlər də çox uğurlu və dinc şəkildə qurulur. Ulu Tanrıya şükür edirəm ki, çoxmillətli Rusiyada, ümumiyyətlə, hər hansı dinlərarası gərginlik yoxdur və bu, əlbəttə, çox cəhətdən pravoslavların dünya duyumu və onların başqa dinlərə münasibəti ilə şərtlənir. Lakin bu, həm də o cümlədən əslən Azərbaycandan olan müsəlmanların mövqeyi ilə bağlıdır. Başqa sözlə desək, bizim ölkələrimiz, xalqlarımız arasında münasibətlərdə müsbət cəhətlər çoxdur. Mən bu münasibətlərin inkişafını alqışlayıram. Hesab edirəm ki, bu münasibətlər çox cəhətdən həm Rusiya, həm Azərbaycan üçün, həm də xalqlarımız üçün vacibdir. Fikrimcə, bu münasibətlərin potensialı hələ tükənməyib. Sizi əmin etmək istəyirəm ki, Rus Pravoslav Kilsəsi tərəfindən mənim şəxsimdə, Rus Pravoslav Kilsəsinin iyerarxiyasının, o cümlədən Azərbaycandakı ruhanilərin şəxsində Azərbaycan ilə Rusiya arasında münasibətlərin daha da inkişafına səmimi qəlbdən çalışan etibarlı tərəfdaşlarınız var.

Sizinlə bu gözəl görüş imkanına görə təşəkkür edirəm və bir daha vurğulamaq istəyirəm ki, Azərbaycanda baş verən bütün dəyişiklikləri görəndə sevinirəm. Biz Sizinlə bir neçə il bundan əvvəl burada görüşmüşdük və deməliyəm ki, Bakıya hətta ötəri nəzər salanda burada çox böyük dəyişikliklər baş verdiyi görünür. Bakı əla infrastruktura malik olan gözəl, çox gözəl şəhərə çevrilir. Burada çoxlu gözəl binalar ucaldılıb. Paytaxtdakı böyük dəyişikliklər münasibətilə Sizi təbrik etmək istərdim, lakin burada yaşayan xeyirxah dostlarımdan da eşitmişəm ki, müsbət dəyişikliklər təkcə paytaxtı yox, bütün ölkəni əhatə edir. Buna görə də Sizə Ulu Tanrıdan kömək, ruhani və cismani qüvvə, Azərbaycan xalqına firavanlıq diləmək istərdim.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

* * *

Sonra Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə də görüşdü.

AZƏRTAC

# Yeni Azərbaycan Partiyasında gənclərlə görüş keçirilib





**Fevralın 5-də Yeni Azərbaycan Partiyasında (YAP) gənclərlə görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədov fevralın 1-də Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin Gənclər Günü münasibətilə gənclərlə böyük bir toplantı keçirdiyini, onlara öz tövsiyələrini verdiyini, gənclərin dövlətin diqqət mərkəzində olması ilə bağlı mesajlarını çatdırdığını xatırladıb. O deyib ki, Azərbaycan Prezidenti gənclərlə dialoqa böyük önəm verir. Bütövlükdə əhali ilə dialoqun qurulması Azərbaycanda həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir.

Qeyd edilib ki, YAP-ın 700 mindən çox üzvünün əksəriyyəti gənclərdir. Hər il partiyaya 25-30 min yeni üzv qəbul olunur və bu üzvlər arasında gənclər üstünlük təşkil edir. Bu, o deməkdir ki, gənclər Heydər Əliyev irsini öyrənməyə önəm verir, Prezident İlham Əliyevin siyasətini dəstəkləyir və bunu YAP-a üzv olmaqla nümayiş etdirirlər. Seçki kampaniyalarının uğurla baş tutmasına da gənclər böyük töhfələrini verirlər.

"Partiya öz imkanları çərçivəsində gənclərə şərait yaradır ki, fəallıqlarını nümayiş etdirsinlər. 2019-cu ilin dekabrında növbəti bələdiyyə seçkiləri keçiriləcək. Biz çalışacağıq ki, fəal gənclərimiz seçkidə namizəd qismində iştirak etsinlər və özlərini sınasınlar. Bununla da ölkənin ictimai-siyasi həyatında daha yaxından iştirak etmək imkanları əldə etsinlər", - deyə YAP sədrinin müavini bildirib.

AZƏRTAC

*Çeyz Keri:*

# Azərbaycan Formula 1 yarışı üçün ideal məkandır

**Formula 1 Azərbaycan Qran-Prisi 2023-cü ilədək Bakıda təşkil ediləcək.**

AZƏRTAC xəbər verir ki, fevralın 5-də Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov və Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Keri bununla əlaqədar müqavilə imzalayıblar.



Azərbaycan Qran-Prisinin keçirilməsinə dair müqavilənin müddətinin uzadılmasından məmnunluğunu bildirən A.Rəhimov deyib: "Bu bizim üçün qürurverici hadisədir. Son bir neçə il ərzində paytaxt sakinlərinin arzuları gerçəkləşdi və biz Bakıda keçirilən Formula 1 yarışlarının sadə bir ideyadan bu idmanın tarixində həyəcan və gərginliklə dolu ən maraqlı yarış həftəsonlarından birinə çevrilməsinə hamılıqla şahid olduq. Həmçinin bu yarışlarda biz Formula 1 yarışının ən maraqlı məqamlarını da müşahidə edə bildik".

Nazir vurğulayıb ki, hər il dünyanın müxtəlif ölkələrindən Bakıya daha çox avtoidman həvəskarı təşrif buyurur. Biz şadıq ki, dünya avtoidman ictimaiyyəti Azərbaycan Qran-Prisinə böyük maraq göstərir. A.Rəhimov bu uğurun qazanılmasında göstərdikləri böyük dəstəyə görə Çeyz Keri başda olmaqla Formula 1 Qrupunun kollektivinə təşəkkürünü bildirib.

"Müqavilənin uzadılması nəticəsində yerli və regional biznes qurumları Formula 1-in qlobal platformasından daha çox faydalanmaq imkanına sahib olacaqlar. Digər tərəfdən, yarış həvəskarları daha çox əyləncə imkanı əldə edəcəklər. Bunun nəticəsində biz öz kommersiya gəlirlərimizi maksimum səviyyədə artıra biləcəyik. Bu fürsəti nəzərə alaraq, deyə bilərəm ki, müqavilənin uzadılması bizim üçün heç vaxt mübahisəli məsələ olmayıb. Biz böyük məmnuniyyətlə builki yarış da daxil olmaqla daha 5 Qran-Priyə ev sahibliyi etməyə hazırıq", - deyə A.Rəhimov bildirib.

Çeyz Keri Azərbaycanın Formula 1 yarışı üçün ideal məkan olduğunu bildirərək deyib: "Çox şadıq ki, bu müqaviləni yeniləməklə biz Azərbaycan Qran-Prisini daha bir neçə il ərzində Formula 1 dünya çempionatında görə biləcəyik. Bakı yarışı gərgin mübarizə və həyəcan dolu anlarla çox qısa müddətdə mövsümün ən məşhur Qran-prilərindən birinə çevrildi. Azərbaycan daim yüksək qonaqpərvərlik nümayiş etdirir. Gözoxşayan Bakıda isə mükəmməl yarış üçün möhtəşəm ab-hava hökm sürür. Bu baxımdan bütün avtoidman həvəskarlarını çox maraqlı yarışı qaçırmamaq üçün Formula 1 Azərbaycan Qran-Prisinə baxmağa dəvət edirəm".

Bakıda ilk dəfə Formula 1 Qran-Prisi 2016-cı ildə təşkil olunub. Baxımlılığı ilə seçilən Bakı yarışı həmişə ilin ən yaxşı Qran-priləri arasında yer alır.

AZƏRTAC

*Azərbaycan Respublikası Prezidentinin*
*2019-cu il 5 fevral tarixli Sərəncamına Əlavə*

## Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuş çoxmənzilli binaların şəhər və rayonlar üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Şəhər, rayon | Binaların sayı, ədəd | İstismara yararsız liftlərin sayı, ədəd | Ayrılan vəsait, min manat | Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuş binalar | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | 6, 7, 8 və 9 mərtəbəli | | | 10, 12, 14 və 16 mərtəbəli | | |
| | | | | | Sayı, ədəd | İstismara yararsız liftlərin sayı, ədəd | Ayrılan vəsait, min manat | Sayı, ədəd | İstismara yararsız liftlərin sayı, ədəd | Ayrılan vəsait, min manat |
| **12 şəhər və rayon üzrə cəmi:** | | **237** | **751** | **40000,00** | **192** | **620** | **31362,21** | **45** | **131** | **8637,79** |
| o cümlədən: | | | | | | | | | | |
| 1. | Bakı | 146 | 542 | 31956,20 | 103 | 413 | 23428,77 | 43 | 129 | 8527,43 |
| 2. | Gəncə | 35 | 75 | 5480,00 | 35 | 75 | 5480,00 | - | - | - |
| 3. | Lənkəran | 2 | 3 | 180,00 | 2 | 3 | 180,00 | - | - | - |
| 4. | Mingəçevir | 10 | 16 | 882,80 | 8 | 14 | 772,44 | 2 | 2 | 110,36 |
| 5. | Naftalan | 3 | 3 | 45,00 | 3 | 3 | 45,00 | - | - | - |
| 6. | Sumqayıt | 29 | 74 | 800,00 | 29 | 74 | 800,00 | - | - | - |
| 7. | Abşeron | 6 | 27 | 405,00 | 6 | 27 | 405,00 | - | - | - |
| 8. | Bərdə | 1 | 1 | 6,50 | 1 | 1 | 6,50 | - | - | - |
| 9. | Goranboy | 1 | 3 | 10,00 | 1 | 3 | 10,00 | - | - | - |
| 10. | Salyan | 1 | 2 | 120,00 | 1 | 2 | 120,00 | - | - | - |
| 11. | Şəmkir | 2 | 2 | 105,00 | 2 | 2 | 105,00 | - | - | - |
| 12. | Tərtər | 1 | 3 | 9,50 | 1 | 3 | 9,50 | - | - | - |

*Azad Rəhimov:*

# Formula 1 Azərbaycan Qran-Prisi yerli şirkətlər üçün yeni imkanlar açır

**Formula 1 dəyişən və inkişaf edən idman növüdür və yarışın təşkil olunduğu ölkələr üçün yeni imkanlar açır. İdmanın bu növü ev sahibi ölkələrin iqtisadiyyatına müsbət təsir göstərir. Bütün bunları nəzərə alaraq, qarşılıqlı razılıq əsasında Azərbaycan Qran-Prisinin 2023-cü ilədək keçirilməsi ilə bağlı müqavilə imzaladıq.**





AZƏRTAC xəbər verir ki, bu sözləri fevralın 5-də Bakıda təşkil olunan mətbuat konfransında Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Keri deyib.

O bildirib ki, yaxın vaxtlarda Formula 1-də inqilabi dəyişikliklər gözlənilmir. Əsas dəyişiklik 2021-ci ilə nəzərdə tutulub. Belə ki, bolidlərin aerodinamikası artırılacaq. Bu da yarışlara həyəcan qatacaq və azarkeşlərin idmanın bu növünə marağını daha da artıracaq.

"Şəhər traslarında təşkil olunan Formula 1 yarışları daha baxımlı olur. Bakı şəhər halqası ilə yanaşı, Sinqapur, Monako və Montsa Qran-priləri də unikallığı ilə seçilir. 2020-ci ildə şəhər traslarında təşkil olunan yarışlara daha biri - Vyetnam Qran-Prisi də əlavə olunacaq. Bu tipli yarışlarda şəhərin enerjisi və Formula 1 sevərlərin azarkeşliyi yarışla vəhdət təşkil edir", - deyə Ç.Keri əlavə edib.

İmzalanmış yeni müqavilənin əhəmiyyətini yüksək qiymətləndirən gənclər və idman naziri Azad Rəhimov qeyd edib ki, Azərbaycan Qran-Prisi yerli şirkətlər üçün yeni imkanlar açır. Onların beynəlxalq arenaya inteqrasiyası üçün bu yarış çox əlverişlidir. Dənizkənarı Milli Parkda yaradılan "F1 Şəhərciyi"ndə şirkətlər öz stendlərini yerləşdirir, məhsullarını təbliğ edir, həmçinin yeni əməkdaşlıqların qurulması istiqamətində addımlar atırlar.

"Gələcəkdə Azərbaycan pilotlarının da Formula 1-də iştirak etmələri mümkündür. Hazırda ölkəmizdə idmançıların yetişməsi üçün kartinq fəaliyyət göstərir. Həmçinin Azərbaycan Avtomobil Federasiyası da bu istiqamətdə işlər aparır", - deyə nazir diqqətə çatdırıb.

AZƏRTAC

# Bakıda "İrimiqyaslı idman yarışlarının keçirilməsinin ölkəyə faydaları" mövzusunda beynəlxalq konfrans təşkil olunub

**Formula 1 Azərbaycan Qran-Prisinin ölkəmizdəki təşkilatçısı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) təşkilatçılığı ilə fevralın 5-də "İrimiqyaslı idman yarışlarının keçirilməsinin ölkəyə faydaları" mövzusunda beynəlxalq konfrans təşkil olunub.**




AZƏRTAC xəbər verir ki, konfransa BŞH-nin icraçı direktoru Arif Rəhimov, Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid, "Heineken İnternational" şirkətinin Formula 1 və Formula E yarışlarına sponsorluğuna dair aparıcı mütəxəssis Ben Pinkus və Formula 1 yarışlarının təşkilatçısı Emili Preyzer qatılıblar.

Tədbirdə Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov və Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Keri də iştirak ediblər.

Konfransda "Formula 1: Qlobal brendlər platforması" mövzusunda müzakirələr aparılıb.

Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham Azərbaycan") icraçı direktoru Natəvan Məmmədova konfransda çıxış edərək bildirib ki, mötəbər beynəlxalq yarışların ölkəmizdə keçirilməsi orta və kiçik biznes də olmaqla bütün sahələrin inkişafına töhfə verir. İdman yarışmaları, eyni zamanda, turizm sektorunun inkişafına da mühüm təsir göstərir.

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid təbliğat zamanı brendin uğurla seçilməsinin önəmli olduğunu deyib. Bildirib ki, Azərbaycanla bağlı sonuncu tanıtım videosu ötən ilin sonunda ictimaiyyətə təqdim edilib. Videoçarxın Londonda nümayişi çox uğurlu olub. Cari ildə isə bu təbliğatın Rusiya, Səudiyyə Ərəbistanı, Hindistan, Birləşmiş Ərəb Əmirlikləri və Almaniyada təşkili nəzərdə tutulub. Digər ölkələrdə də təbliğatın aparılması planlaşdırılır.

Sonra tanıtım videosu konfrans iştirakçılarına təqdim olunub.

Formula 1 yarışının təşkilatçısı Emili Preyzer Azərbaycan Qran-Prisinin dünya çempionatının təqvimində xüsusi çəkiyə malik olduğunu deyərək diqqətə çatdırıb ki, Azərbaycanda kifayət qədər Formula 1 azarkeşi var. Bütün bunlar rəqəmsal platformalarda aparılan hesablamalar zamanı müəyyən edilir. İldən-ilə yarışı izləyənlərin sayı artır və Azərbaycan Qran-Prisi ilin ən yaxşı yürüşü adını qazanır. Bütün bunlar Azərbaycan Qran-Prisinin təşkilatçılarının yüksək peşəkarlığından xəbər verir.

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin icraçı direktoru Arif Rəhimov Formula 1 yarışının Azərbaycanda keçirilməsinin daha üç il uzadılmasının müsbət hal olduğunu bildirib. O qeyd edib ki, bu müqavilə Azərbaycanın Qran-Priyə uğurla ev sahibliyi etməsinin göstəricisidir. Azərbaycanın mötəbər beynəlxalq idman tədbirlərinin keçirilməsində böyük uğurlar əldə etdiyini vurğulayan A.Rəhimov deyib: "Biz yarışı təşkil etməyə başlayanda uğur qazanıb-qazanmayacağımızı bilmirdik. Formula 1 tərəfdaşlarının və hökumətin verdiyi rəy işimizin uğurlu olduğunu göstərir. Çalışacağıq ki, qarşıdakı illərdə də uğurlarımız davam etsin".

O diqqətə çatdırıb ki, indiki məqamda Formula 1-in Bakıdan ölkənin başqa bir şəhərinə köçürülməsi mümkün deyil. BŞH tərəfindən regionlarda Formula 1 üzrə simulyator yarışları keçirilib. Cari ildə də Azərbaycan Qran-Prisində bir sıra tanınmış musiqiçilər konsert proqramı ilə çıxış edəcəklər. Tanınmış müğənnilərin biri ilə danışıqlar sonuncu mərhələdədir.

Konfrans zamanı Azərbaycan Qran-Prisi ilə bağlı müxtəlif videoçarxlar nümayiş etdirilib.

Digər çıxış edənlər də irimiqyaslı idman yarışlarının ölkə üçün əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, bu yarışlar iqtisadi inkişafa töhfə verməklə yanaşı, ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasına da səbəb olur.

AZƏRTAC

*İrakli Kobaxidze:*

# Azərbaycan ilə münasibətlərə böyük önəm veririk



**Axalkalaki rayonunun Bugaşen kəndində erməni hərbçiyə qoyulmuş abidə ilə bağlı məsələ Gürcüstanda hakim partiyada da ciddi müzakirə olunur.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze parlamentin yaz sessiyasının fevralın 5-də keçirilmiş ilk iclasında söyləyib. Sədr bildirib ki, məsələ ətrafında ciddi müzakirələr gedir. Gələcəkdə bu cür xoşagəlməz hadisələrin baş verməməsi üçün müəyyən tədbirlər görüləcək.

"Bizim Azərbaycan ilə çox yaxşı əlaqələrimiz var. Biz Azərbaycan ilə münasibətlərə böyük önəm veririk. Biz Azərbaycan dövləti, eləcə də digər qonşu ölkələrlə münasibətlərə xüsusi diqqət yetiririk. Azərbaycan ilə münasibətlərin korlanmasına imkan verə bilmərik. Məsələ Azərbaycan tərəfi ilə ətraflı müzakirə olunacaq. Azərbaycan tərəfi ilə həll oluna bilməyən məsələmiz yoxdur", - deyə İ.Kobaxidze vurğulayıb.

AZƏRTAC

# Azərbaycanda ailə, qadın və uşaq hüquqlarının müdafiəsi: inkişaf və perspektivlər

**Müasir müstəqil Azərbaycan dövlətinin yaradıcısı ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş prinsiplərə sadiq qalaraq bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikada nəhəng quruculuq işləri aparılır. Artıq Azərbaycan nəinki regionun, dünyanın lider ölkələri sırasında olmaqla bərabər, əksər regional və ya beynəlxalq layihələrin əsas tərəfdaşına çevrilib. Prezidentimizin uğurlu dövlət idarəçiliyi, onun rəhbərliyi ilə aparılan sistemli islahatlar, göstərdiyi siyasi iradə hər bir vətəndaşın rifahının yüksəldilməsinə yönəlib. Vahid dövlətçilik siyasəti nəticəsində Azərbaycan iqtisadi, siyasi, hərbi, sosial, idman, mədəni sahələrdə davamlı şəkildə və dinamik inkişaf edir. İnfrastrukturun, o cümlədən sosial infrastrukturun yaradılması, yeni müəssisələrin, texno və sənaye parklarının açılması ümumi iqtisadi inkişafla yanaşı, regionların, ən ucqar kəndlərin inkişafına təkan verir, insanların rifahını yaxşılaşdırır. Xüsusilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurla həyata keçirilməsi öz müsbət nəticələrini verir. On dörd il əvvəl qəbul edilmiş birinci proqram, demək olar ki, Azərbaycan regionlarında dönüş yaratdı. Keçən müddət ərzində ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atıb. Azərbaycanın beynəlxalq nüfuzu artıb, aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün mötəbər beynəlxalq qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Dünya İqtisadi Forumunun 2017-2018-ci illər üzrə Qlobal Rəqabətlilik Hesabatında Azərbaycan reytinqdə 35-ci yerdədir. Azərbaycan sosial bərabərsizliyin ən aşağı olduğu ölkələrdən biri kimi dəyərləndirilib. Dünya İqtisadi Forumu ölkəmizlə bağlı daha bir hesabatını açıqlayıb. Belə ki, Azərbaycan Dünya İqtisadi Forumunun illik "İnklüziv inkişaf indeksi-2018" hesabatında inkişaf etməkdə olan ölkələr arasında 3-cü yeri tutub. Bu hesabatda Azərbaycan 7 mümkün baldan 4,69 bal toplayıb. 2018-ci ildə Dünya Bankının yaydığı "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşan Azərbaycan Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib. Bütün bunlar onu göstərir ki, müasir inkişaf dövrünü yaşayan Azərbaycanın imkanları genişlənir və bu, dövlətimizin dünyada nüfuzunun ildən-ilə artmasına səbəb olur. Bu gün artıq Azərbaycan özünü dünya miqyasında müstəqil siyasət aparan ölkə kimi təqdim edir. Bunun təməlində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın ümummilli lider Heydər Əliyevin ideyalarına, irsinə olan sadiqlik, güclü siyasi iradə, gərgin əmək, yüksək şəxsi keyfiyyətlər, xalqla sıx təmas dayanır. Qeyd etmək lazımdır ki, bu uğurlarda digər dövlət qurumları ilə yanaşı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin də mühüm töhfələri olub. Bu da bizim həm iş yükümüzü, həm də məsuliyyətimizi artırır. Demək olar ki, qəbul olunan bütün qanunvericilik aktlarında, dövlət proqramlarında komitənin üzərinə düşən öhdəliklər var. Bu, o deməkdir ki, komitənin fəaliyyətinə xüsusi önəm verilir. Əlbəttə ki, biz də öz işimizlə bunu bir daha təsdiqləməliyik.**

**AZƏRTAC Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, professor Hicran Hüseynovanın "Azərbaycanda ailə, qadın və uşaq hüquqlarının müdafiəsi: inkişaf və perspektivlər" sərlövhəli məqaləsini təqdim edir.**

Ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində bir sıra mühüm qanunlar qəbul edilib və bu sahədə davamlı islahatlar aparılıb. Həmin qanunların qəbul edilməsi yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan verib. Dövlətimizin başçısının sərəncamları ilə təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf məqsədlərindən, eləcə də Strateji Yol xəritəsindən irəli gələrək ailə institutunun daha da gücləndirilməsi, gender bərabərliyinin təmin edilməsi, bütün sahələrdə qadınların və qızların, uşaqların hüquqlarının müdafiəsi üçün geniş imkanlar yaranıb.

Ölkə rəhbərliyinin ciddi dəstəyi ilə həyata keçirilən dövlət siyasətinə uyğun olaraq ailə, qadın və uşaqlarla bağlı bir çox məsələlər öz real həllini tapıb. Dünyada risklərin, təhlükələrin artdığı, qanlı münaqişələrin, hərbi qarşıdurmaların geniş vüsət aldığı bir şəraitdə Azərbaycanda insanlar üçün sabitlik, təhlükəsizlik şəraiti təmin edilib. Bu gün təhlükəsizlik və ictimai asayiş baxımından Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Ölkə başçısının yürütdüyü siyasət Azərbaycan xalqının maraqları üzərində qurulub və bu maraqları təmin etmək üçün bütün imkanlar səfərbər olunur. Çox önəmli faktdır ki, hər il dövlət başçısının imzaladığı fərman və sərəncamların 65 faizi məhz sosialyönümlüdür. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Bu isə insanların bütövlükdə Prezident İlham Əliyevin siyasətinə və sözünə olan inam və etimadını daha da gücləndirir. Nəticədə xalqla hökumətin sıx birliyi yaranıb.

Əhalinin yarısını, bəzi ölkələrdə isə hətta yarıdan çoxunu qadınlar təşkil etdiyindən yeni inkişaf gündəliyi məhz qadın hüquqlarının müdafiəsinin daha da gücləndirilməsinə əsaslanıb. Azərbaycanda hər zaman qadının ailədə, işdə, həm də cəmiyyətdə layiqli yer tutması dövlətimizin prioritet sahəsidir. Qadınlarımız, gənc qızlarımız dövlətin yaratdığı bütün imkanlardan yararlanır, sərbəst təhsil alır, peşə səviyyəsini artırır, ictimai-siyasi proseslərdə iştirak edir, siyasət, sahibkarlıq kimi sahələrdə də geniş təmsil olunurlar. Səhiyyədə, təhsildə, elmdə, orduda, idmanda, milli təhlükəsizlik və hüquq-mühafizə orqanlarında çalışırlar. Bu isə Azərbaycan hökuməti və Prezident İlham Əliyev tərəfindən aparılan güclü dövlət qadın siyasətinin məntiqi nəticəsidir.

Bu gün qarşımızda dayanan əsas məqsədlərdən biri qadın sahibkarlığının inkişafıdır. Bununla əlaqədar olaraq bir sıra mühüm tədbirlər keçirildi, memorandumlar imzalandı. 2018-ci ilin iyul ayında Bakıda "İşgüzar Qadınlar" Assosiasiyası ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində "Qadın sahibkarlığı: inkişaf perspektivləri və əməkdaşlıq" mövzusunda dəyirmi masa ətrafında müzakirələr aparılıb. Daha sonra əməkdaşlıq memorandumu imzalanıb. Həmin ilin sentyabrında Bakıda IX Azərbaycan-Rusiya Regionlararası Forumu çərçivəsində "Qadın sahibkarlığının inkişafında ikitərəfli əməkdaşlığın perspektivləri" mövzusunda xüsusi sessiya keçirilib. Bu tədbirin sonunda da əməkdaşlıq memorandumu imzalanıb. Bu sənədin əsas məqsədi regionlararası qadın sahibkarlığının inkişafı, ikitərəfli işbirliyinin qurulması idi. Oktyabr ayında isə Rusiya Federasiyasının Həştərxan vilayətində "Həştərxan-Azərbaycan: Qadın Sahibkarlığı" biznes forumu keçirilib. Otuzadək azərbaycanlı sahibkar qadın iki dövlət arasında biznes və işgüzar əlaqələrin qurulmasına yönəldilmiş bu Forumda iştirak edib. Bizim məqsədimiz odur ki, sahibkar qadınlarımız daha da inkişaf etsinlər, yeni bazarlara çıxış imkanlarına malik olsunlar, öz işlərini daha da genişləndirsinlər. Buna görə də çox vacibdir ki, həm yerli, həm də beynəlxalq səviyyədə əlaqələr qurulsun, şəbəkələr yaradılsın. Bu məsələləri biz bütün səviyyələrdə qaldırırıq. Azərbaycan 2012-ci ildən BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının (SPECA) Gender və İqtisadiyyat üzrə Tematik İşçi Qrupuna sədrlik edir. 2018-ci ildə Qazaxıstanda BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının Gender və İqtisadiyyat üzrə Tematik İşçi Qrupunun iclası və BMT-nin Avropa İqtisadi Komissiyası (UNECE) və BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) təşkilatçılığı ilə SPECA İqtisadi Forumunda da bu məsələlər müzakirə olunub. Bir sıra layihələrimiz Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP), Əhali Fondu (UNFPA), Uşaq Fondu (UNİCEF), Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR), Beynəlxalq Miqrasiya Təşkilatı (İOM), Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) dəstəyi ilə reallaşır. Nə üçün qadın sahibkarlığının inkişafı və xüsusilə də kiçik və orta sahibkarlığın inkişafı bu qədər önəmlidir? İlk növbədə, qadınlar əhalinin yarısını təşkil edir və onların arasında məşğulluğun artırılması çox vacibdir. Bunun üçün isə qadın "işəxtaran" statusdan "iş yerləri yaradan" statusa keçməlidir. İkincisi, qadının iqtisadi cəhətdən güclü olması onun zorakılığa məruz qalma riskini azaldır. Üçüncüsü, ölkədə ömür uzunluğunun artması əmək qabiliyyətli yaşda olan insanlar üçün müəyyən çətinliklər yarada bilər. Bunlardan ən başlıcası əhalinin ömür boyu təhsil alması və yeni peşəyə sahib olmasıdır. Strateji Yol Xəritəsi də insanların özünü reallaşdırması üçün imkanların genişləndirilməsini nəzərdə tutur. Buna görə də əhalinin, əsasən də qadınların peşə təhsilinin gücləndirilməsi və zamanın tələblərinə uyğunlaşdırılması aktualdır. Qadınların peşə hazırlığı kurslarına cəlb olunması, onların bazar iqtisadiyyatı və sahibkarlıq fəaliyyəti haqqında bilik və təcrübə qazanmaları üçün maarifləndirici tədbirlərin keçirilməsinin böyük əhəmiyyəti var. Artıq bizdə belə bir təcrübə var ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən qadınlar üçün imkanlar yaradıldıqda və onlara stimul verdikdə çox müsbət nəticələrə nail olmaq mümkündür. Bu gün fəaliyyət göstərən Qadın Resurs mərkəzləri, eyni zamanda, 11 regional Uşaq və Ailələrə Dəstək mərkəzi buna əyani misaldır. Qeyd etmək lazımdır ki, 2018-ci ildə biz Qadın Resurs mərkəzlərinin sayını 8-ə çatdırmışıq. Bu mərkəzlər Qusar, Zaqatala rayonları və Bakının Xəzər rayonlarında yaradılıb. Ümumiyyətlə, 2011-2018-ci illər ərzində təlim və tədbirlərdə iştirak edən qadınların və gənclərin sayı 5500 nəfər olub. Keçən dövrdə 102 qadın sahibkarlıq fəaliyyətinə başlayıb, 50-yə yaxın qadın əlavə iş yeri təmin edib. Regional Uşaq və Ailələrə Dəstək mərkəzlərinin fəaliyyəti gündən-günə genişlənir və yerli əhali real nəticələri görür. İl ərzində mərkəzlərin fəaliyyətindən 20 min 748 vətəndaş bəhrələnib. Ümumilikdə 6 il ərzində mərkəzin fəaliyyətindən 11 min 385 nəfər faydalanıb. Buna görə də mərkəzlərin fəaliyyətini təkmilləşdirmək məqsədilə əməkdaşların peşəkarlığının artırılması ilə yanaşı, maddi-texniki bazası da intensiv şəkildə möhkəmləndirilir. 2018-ci ildə daha bir mərkəzin Zaqatalada yeni binasının açılışı olub. Bu il investisiya layihəsi çərçivəsində Goranboydakı mərkəzin yeni binasının inşası nəzərdə tutulur. Mərkəzlərin maddi-texniki bazasının gücləndirilməsi göstərilən xidmətlərin keyfiyyətini daha da artırır. Bu şəraiti yaratdıqlarına görə ölkə rəhbərliyinə və İqtisadiyyat Nazirliyinə xüsusi olaraq təşəkkür edirik.

Bu gün qızlar üçün qapalı heç bir peşə yoxdur. Texniki, innovativ, neft sənayesi və digər sahələrdə qızlarımızın sayı artmaqdadır. Tədqiqatların analizi də onu göstərir ki, qızlarımız dövlət sektorunda işləmək arzusundadır. Statistik rəqəmlər də onu təsdiq edir ki, qadınların 30 faizi dövlət, 70 faizə qədəri isə özəl sektorda işləyir. Baxmayaraq ki, qadınlar bilik və bacarıqlarına görə kişilərdən geri qalmırlar. Lakin onlar dövlət sektorunda istənilən səviyyədə təmsil olunmayıblar. Bizdə belə bir praktika var. Dövlət qurumları yalnız qadınlar üçün işə qəbul imtahanları keçirirlər və beləliklə də qadınların bu və ya digər sahələrdə təmsilçiliyinin artmasına nail olunur. Məsələn, Dövlət Gömrük Komitəsində ikinci dəfədir ki, belə bir imtahan keçirilir. Artıq qadınların gömrük xidmətlərində iştirak səviyyəsi 20 faizə qədər yüksəlib. Bundan həm qadınlar və onların ailələri, həm də dövlətimiz qazanır. Doğrudur, bu müsbət diskriminasiya sayılsa da, biz çalışırıq ki, fərqi aradan qaldıraq.

Digər aktual məsələlərdən biri də məişət zorakılığı və gender əsaslı zorakılıq hallarının qarşısının alınmasıdır. Artıq hamı tərəfindən qəbul edilib ki, qadın və qızlara qarşı zorakılıq qlobal sülh və təhlükəsizliyə zərbə vurur. Zorakılıq ailələri və cəmiyyətləri bir araya gətirən ictimai əlaqələri zəiflədir. Bütövlükdə ölkələrin sosial sabitliyə və iqtisadi inkişafa nail olmasına mane olur. Hər bir zorakılıq əməli, o cümlədən məişət zorakılığı qadınların hüquqlarının ciddi pozuntusudur. Məişət zorakılığı qadınlar, uşaqlar, ailələr və bütövlükdə cəmiyyət üçün ağır fiziki, emosional, iqtisadi və sosial nəticələr doğurur. Buna görə də məsələyə adekvat münasibətin göstərilməsi son dərəcə zəruridir. Məlum olduğu kimi, problemin dərindən öyrənilməsini, dərk olunmasını və onunla mübarizəni təmin etmək üçün bütün rayonların icra hakimiyyətləri yanında monitorinq qrupları yaradılıb. Qrup üzvləri ilə mütəmadi olaraq aparılan təlimlər, görüşlər nəticəsində qrup üzvlərinin aktivliyi müşahidə olunur. Onlar daha operativ şəkildə zorakılığa məruz qalan insanlara yardım edir, zorakılığı törədən insana qarşı müvafiq tədbirlər görürlər.

Məişət zorakılığının qurbanlarının, eləcə də zorakılığı törətmiş insanların şəxsiyyətlərinin öyrənilməsi problemin səbəblərinin araşdırılması və preventiv tədbirlərin tətbiqi imkanlarını artırır. Bu baxımdan zorakılığa məruz qalanların sosial-demoqrafik vəziyyətinin, zorakılıq qurbanı ilə zorakılığı törətmiş şəxs arasında qarşılıqlı əlaqənin (qohumluq, qonşuluq, dostluq və s.) eyni zamanda, viktim şəraitin səciyyəvi xüsusiyyətlərinin (yəni, zorakılığın situativ və ya uzunmüddətli olması, regional xüsusiyyətləri və s.) öyrənilməsi zəruridir. Təhlillər göstərir ki, gender bərabərliyini daha az dəstəkləyən və xüsusilə də qadınlara qarşı zorakılıq barədə bəzi fikirlərin (məsələn, "qadın öz ailəsini qoruyub saxlamaq üçün zorakılığa dözməlidir" və "bəzi hallarda qadın döyülməyə layiqdir") tərəfdarı olan kişilər rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxslərə qarşı daha çox zorakılıq törədən şəxslərdir. Təəssüflər olsun ki, hazırda bütün dünyada hər üç qadından biri öz həyatı boyu fiziki və ya cinsi zorakılığa məruz qalır. Hər il dünyada zorakılıq səbəbindən öz partnyorları və qohumları tərəfindən 1200-ə yaxın qadın ölür, 2 milyon qadın yaralanır, 4 minə yaxın qadın evdə ağır şəkildə döyülür, 1000-ə yaxın qadın isə hər gün müxtəlif təzyiqlərlə üzləşir. 750 milyon qız 18 yaşına çatmamış erkən nikaha girir. Qadın və qızların yetmiş bir faizi insan alverinin qurbanına çevrilir.

Ölkəmizdə qadınlara və qızlara qarşı zorakılığın aradan qaldırılması sahəsində qanunvericilik bazası mövcuddur və daim təkmilləşir, qadınların hüquqlarının müdafiəsi üçün sosial proqramlar həyata keçirilir, davamlı olaraq maarifləndirmə kampaniyaları aparılır. Lakin bütün bunlara baxmayaraq, hələ də bütövlükdə qadınlara qarşı zorakılıq tam şəkildə aradan qaldırılmayıb. Bəzən nikaha məcbur etmə, qız qaçırma, hansısa milli adət-ənənəni, qısqanclıq zəminində baş verən qətlləri zorakılıq kimi qəbul etmirlər. Ümumiyyətlə, biz mübarizə aparmalıyıq ki, insanların bu anlayışa münasibəti dəyişsin.

Son onillik ərzində mütəxəssislər, tədqiqatçılar və ictimai fəallar arasında gender bərabərliyinin təşviqində kişilərin rolunun əhəmiyyəti daha çox vurğulanır. Digər tərəfdən, kişilərin gender bərabərliyinin təşviqində tərəf-müqabili və müttəfiq kimi cəlb olunmaması qadınların və qızların bununla əlaqədar olan yükünü daha da artır. Bunu nəzərə alaraq, 2017-ci ildə BMT-nin Əhali Fondunun dəstəyi ilə ölkədə "Kişilərin gender bərabərliyinə münasibətinə dair" Tədqiqat (İMAGES) aparıldı. Bu tədqiqat kişi və qadınların gender normaları ilə bağlı təcrübəsi və bu məsələlərə dair yanaşma tərzi, gender bərabərliyi siyasətinə münasibət, qayğı göstərmə və kişilərin ata qismində iştirakı da daxil olmaqla ev təsərrüfatındakı dinamika, ailədaxili zorakılıq, sağlamlıq və iqtisadi təzyiq kimi məsələləri əhatə edən ən müfəssəl araşdırma hesab olunur. Bu tədqiqatın nəticələri aidiyyəti dövlət qurumlarının məsul şəxslərinin, millət vəkillərinin, qeyri-hökumət təşkilatlarının, tanınmış mütəxəssislərin iştirakı ilə ictimaiyyətə təqdim edilib və müzakirələr aparılıb. Bu sahədə həyata keçirilən layihələrdən biri də "Məcburi köçkün icmalarında cinsi və gender zorakılığının qarşısının alınması və cavab tədbirləri"dir. Layihə çərçivəsində Bakı şəhəri Binəqədi və Sabunçu, Goranboy, Bərdə, Ağdam rayon icra hakimiyyətləri yanındakı gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları nəzdində operativ işçi qrupları (şəbəkələr) yaradılıb.

Hazırda dünyanın bir sıra ölkələrində aktual problemlərdən biri də doğulan uşaqların cinsə görə nisbətinin pozulmasıdır. Əfsuslar olsun ki, Azərbaycan da bu problemdən kənarda qalmayıb. Son 20 ildə kişilərin sayı sürətlə artmış və əhali arasında cins nisbəti demək olar ki, bərabərləşib. Belə ki, hazırda əhalinin 49,9 faizini kişilər, 50,1 faizini qadınlar təşkil edir. Problemin aradan qaldırılması istiqamətində maarifləndirmə işlərinin geniş şəkildə aparılması və səhiyyə xidmətlərinin inkişaf etdirilməsi vacibdir. Xüsusilə kənd yerlərində qadınlar arasında bir çox məsələlərlə (ailə planlaması, hamiləlikdən qorunma, süni mayalanma, reproduktiv sağlamlığın qorunması, doğulan uşaqların cinsə görə nisbətinin pozulması və s.) bağlı maarifləndirmə kampaniyalarının aparılması zəruridir. BMT-nin Əhali Fondu, Niderland Krallığı və Avropa İttifaqının maliyyə dəstəyi ilə ölkəmizdə uşağın cinsinə görə selektiv abortların qarşısının alınması, ailədə və cəmiyyətdə qız uşaqlarına dəyər verilməsi, gender əsaslı zorakılıqla mübarizə məqsədilə üçillik yeni layihənin icrasına başlanılıb. Layihədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər və İdman Nazirliyi əsas hökumət tərəfdaşlarıdır. Artıq layihə çərçivəsində KİV nümayəndələri, gənc oğlanlar, gənc atalar, kişilər üçün ailədə və cəmiyyətdə qız uşaqlarına dəyər verilməsi ilə bağlı bir neçə təlimlər keçirilmiş, sosial çarxlar hazırlanıb. 11 oktyabr - Beynəlxalq Qızları Müdafiə Günü ilə bağlı "Atalar və Qızlar" adlı fotosərgi, festival keçirilib, "Qız yükü" tamaşasının ictimai baxışı olub. Nəzərdə tutulan tədbirlərdən biri də Azərbaycan Hökumətinin və BMT-nin Əhali Fondunun əməkdaşlığı ilə doğulanlar arasında cins nisbətinin pozulmasının aradan qaldırılmasına dair Milli Fəaliyyət Planının hazırlanmasıdır. Bununla əlaqədar olaraq, 2017-ci ilin dekabr ayında BMT Əhali Fondu tərəfindən ABŞ-ın Merilənd Universitetinin professoru, demoqrafiya sahəsi üzrə tədqiqatçı Monika Das Qupta dəvət edilib. O, bir sıra dövlət və qeyri-dövlət təşkilatlarının nümayəndələri ilə görüşlər keçirib. 2018-ci ilin birinci yarısında ilkin sənəd hazırlanaraq dövlət qurumlarına göndərilib. 2018-ci ilin oktyabr ayında isə həmin sənəd müəllifin iştirakı ilə aidiyyəti dövlət qurumlarının məsul şəxslərinin, millət vəkillərinin, qeyri-hökumət təşkilatlarının, tanınmış mütəxəssislərin iştirakı ilə ictimaiyyətə təqdim edilib və müzakirələr aparılıb. Hazırda sənəd üzrə son işlər görülür və bu il Milli Fəaliyyət Planının qəbulu nəzərdə tutulur.

Yeni qanun layihələri ilə yanaşı, mövcud qanunların ekspertizası aparılır, yeni təkliflər hazırlanır. Məsələn, "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın tərkibi haqqında" qərar layihəsi 11 nəfərdən ibarət yeni tərkibdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli, 308 nömrəli Qərarı ilə təsdiq edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 may 2011-ci il tarixli, 81 saylı Qərarı ilə təsdiq edilmiş "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"ın Tədbirlər Planının 4.1.5-ci bəndində nəzərdə tutulan "Övladlığa götürmə prosedurunun təkmilləşdirilməsi" ilə bağlı komitə tərəfindən "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanıb. Qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə müəyyən edilmiş qaydada Nazirlər Kabinetinə göndərilib. "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının qanun layihəsi aidiyyəti dövlət qurumlarla razılaşdırılaraq Nazirlər Kabinetinə təqdim edilib.

Son illər ailə institutunun qorunması ilə bağlı keçirilən beynəlxalq konfranslar bu məsələlərin dünya ölkələri üçün nə qədər aktual olduğunu bir daha göstərir. Əfsuslar olsun ki, bu gün biz dünyada ailələrin sayının azaldığını müşahidə edirik. Bir çox ölkələrdə isə ailə anlayışı sosial institut kimi öz əhəmiyyətini itirmək üzrədir. Belə ki, dünyada son 53 ildə boşanmaların sayı iki dəfə artıb, nikahların sayı da bir o qədər azalıb. Biz bu gün ətrafda nə görürük? Ekstremizm, zorakılıq, hərbi münaqişələr, iqtisadi böhranlar, sosial ədalətsizlik bəşəriyyətin gələcəyinə təhlükə yaradır. Nəticədə ailələr dağılır, milli-mənəvi dəyərlər deformasiyaya məruz qalır. Lakin bütün bunların fonunda Azərbaycanda ailə institutu qorunub saxlanılır, insanlar təhlükəsizlik, dostluq, mehribançılıq, tolerantlıq şəraitində yaşayırlar. Artıq dünyanın bütün ölkə və xalqları Azərbaycanın ailə və mədəni tolerantlıq modelini qəbul edir. Bu gün ölkədə ailə institutunun möhkəmləndirilməsi üçün hansı imkanlar var? İlk növbədə, qeyd etmək lazımdır ki, güclü qanunvericilik bazası mövcuddur. Yeni tələblər və ehtiyaclar əsasında bu baza daim təkmilləşir. Bütövlükdə ailələrin sosial rifahını yüksəltmək üçün hökumət mütəmadi zəruri tədbirlər həyata keçirir. İldən-ilə ailələrimizin sosial müdafiəsi güclənir, müxtəlif layihələr reallaşdırılır. Bunun nəticəsində son 20 il ərzində əhalimizin sayı artaraq 9 milyon 900 mini ötüb. Bu gün Azərbaycanda 2 milyon 100 mindən çox ailə var. Yüzlərlə ömrünün 25, 50, 60 və daha çox müddətini bir yerdə yaşayan uzunömürlü ailələrimiz var.

Lakin qeyd etməliyik ki, bir çox problemlər hələ də öz aktuallığını saxlamaqdadır. Biz araşdırırıq ki, ailələrdə hansı risklər var? Bu mənfi tendensiyaları aradan qaldırmaq üçün nə edə bilərik? İlk növbədə, ailədə valideyn məsuliyyətinin artırılması ən önəmli məsələlərdən biridir. Ailədaxili münasibətlərin pozulması zamanı erkən müdaxilə etmək və problemin vaxtında həll olunması üçün "Ailə Psixoloqu" İnstitutunun yaradılması da qarşıda dayanan məsələlərdəndir. Ailə dəyərlərimizin təbliğində KİV-in, xüsusilə televiziyanın üzərinə böyük iş düşür. Əfsuslar olsun ki, bir çox hallarda sosial-məişət mövzulu proqramlarda yalnız cəmiyyətin neqativ hissəsi nümayiş olunur. Halbuki bizim çox sayda nümunəvi ailələrimiz var. Düzdür, ailələrin problemlərini işıqlandırmaq lazımdır, lakin balans pozulmamalıdır. Ən təhlükəli məsələlərdən biri də internetin, sosial şəbəkələrin görünmədən, lakin çox sürətlə ailələrə daxil olmasıdır. Biz görürük ki, insanlar öz ailə üzvləri ilə müqayisədə virtual məkanda daha çox vaxt keçirirlər. Bu isə insanları bir-birindən uzaqlaşdırır, övlad-valideyn ünsiyyətində soyuqluq yaradır. Xüsusən də bu böyüməkdə olan gənclərimizə, onların psixikasına mənfi təsir göstərir, asılılıq yaradır. Ona görə də biz uşaqları onların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorumalıyıq. Bunun üçün biz, valideynlər və uşaqlarla görüşlər keçirir, texnologiyanın müsbət və mənfi tərəfləri barədə məlumatlar veririk. Eyni zamanda, ailə üzvləri arasında ünsiyyətin güclənməsi üçün "Ailəlikcə kitabxanaya" layihəsi keçirilir. Bu, həm uşaqlarımızın kitaba, mütaliəyə marağını artırır, həm də ailə üzvlərini bir-birinə daha da mehriban edir. Baxmayaraq ki, ailə institutunun möhkəmləndirilməsi məqsədi ilə qanunvericilik bazası yaradılıb. Lakin bununla yanaşı, mövcud qanunların düzgün dərk edilməsi sahəsində ardıcıl və sistemli maarifləndirici işlərin aparılması çox vacibdir. Buna görə də rayon və kənd əhalisi arasında, məktəblərdə, ali təhsil müəssisələrində, hərbi hissələrdə ailə münasibətlərinin formalaşması, yeni keyfiyyətlərin müsbət və mənfi təsiri haqqında seminarlar keçirir, yaşlı nəsllə gənc nəslin dialoqunu təşkil edirik. Bizim maraqlı və uzunömürlü layihələrimizdən biri də "Ailə bayramı" və "Azərbaycan ailəsi" adlı filmlər festivalıdır. Bu il layihələrin 10 ili tamam olur. Festivalın əsas məqsədi kinematoqrafiyanın geniş imkanlarından istifadə edərək ailə dəyərlərini, milli-mənəvi dəyərləri gənclər arasında təbliğ etməkdir. Eyni zamanda, cəmiyyətdə bu istiqamətdə mövcud olan problemləri işıqlandırmaqla onların həlli yollarının axtarılması və ailə institutunun inkişafına töhfə verməkdir. Bu filmlərdən maarifləndirici tədbirlərdə əyani vəsait kimi istifadə edilir. Bəzən məruzə ilə, təlimlə izah olunmayan məqamlar, ekran dili ilə daha effektiv və emosional formada çatdırılır ki, bu da insanda dərin psixoloji iz qoyur.

Uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan hökuməti tərəfindən mühüm işlər görülüb. Ölkədə vahid dövlət uşaq siyasətini həyata keçirən dövlət qurumu kimi, komitə mütəmadi olaraq müxtəlif layihələr həyata keçirir. Uşaq hüquqlarının müdafiəsi ilə bağlı güclü qanunvericilik bazası mövcuddur. Keçən il "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanun layihəsi qəbul olunub. Bu da bizim bir uğurumuzdur. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "2018-2028-ci illər üçün Azərbaycan Respublikasının Milli Uşaq Strategiyası"nın layihəsi hazırlanmış və hökumətə təqdim edilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bütün uşaqlar üçün, xüsusilə də cəmiyyətdəki daha həssas uşaqlar - xüsusi qayğıya ehtiyacı olan, ailələrini itirmiş azyaşlılar, münaqişədən zərər çəkmiş bölgələrdə yaşayan uşaqların müdafiəsi ilə bağlı müxtəlif layihələr həyata keçirilir. Bu gün ölkədə hər bir uşaq üçün bərabər imkanlar yaradılıb. Onlar üçün təhsil, tibb, istirahət və digər xidmətlər əlçatandır. Ədalətli, inklüziv çıxış imkanları var. Uşaq hüquqlarının müdafiəsi üzrə çox ciddi nəzarət və monitorinq mexanizmi yaradılıb. Mütəmadi olaraq uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinqi aparılır, tövsiyələr hazırlanır, sənədlər Nazirlər Kabinetində toplanır və Prezidentə hesabat verilir. Bu, müvafiq dövlət qurumlarının uşaq məsələlərini daha çox diqqətdə saxlamalarına səbəb olur. Ölkəmiz "Uşaq hüquqları haqqında" Konvensiyadan irəli gələrək bir sıra öhdəliklərlə bağlı hər 4 ildən bir hesabat verir. BMT-dən hesabata dair verilən yüksək qiymətlər alırıq. Bu, onu göstərir ki, dövlətimiz uşaq hüquqlarının həyata keçirilməsi üçün çox böyük uğurlar əldə edib. Mühüm qanunlar, dövlət proqramları qəbul olunur, vacib layihələr həyata keçirilir. Bir çox ölkələrdən, hətta inkişaf etmiş ölkələrdən bu sahədə biz öndəyik. 2009-cu il "Uşaq ili" elan olunub. Uşaq hüquqlarının müdafiəsi ilə məşğul olan qeyri-hökumət təşkilatlarının sayı 350-dək artıb. Bizim üçün çox vacibdir ki, uşaqlarımızın ictimai fəallığı artsın və dövlət siyasətinin həyata keçirilməsində aktiv iştirak



edə bilsinlər. Qeyd etmək lazımdır ki, bu sahədə görülən işlər öz müsbət nəticəsini verir. Artıq uşaqlarımız dövlət rəsmilərinə onları maraqlandıran suallarla müraciət edir, həmçinin sərbəst şəkildə hökumətə öz hüquqları ilə bağlı istək və arzularını çatdırır, mühüm məsələlərə münasibətlərini bildirirlər. Azərbaycanın bütün regionlarında bizim dəstəyimizə çevrilən uşaqlardan ibarət güclü Liderlər Komandası formalaşıb. Prezident İlham Əliyev öz çıxışlarında könüllülərin fəaliyyətini xüsusi olaraq vurğulayır: "Əminəm ki, bütün başqa sahələrdə könüllülər institutu Azərbaycanda daha da sürətlə formalaşacaq və ümumiyyətlə, bu, cəmiyyətin niyyətini ifadə edir". Qeyd etmək istərdik ki, Forumun iştirakçılarından formalaşan çevik və fəal könüllülərimiz var. Onlar bütün layihələrdə çox həvəslə iştirak edirlər. Hər iki ildən bir UNİCEF və Heydər Əliyev Fondu ilə birgə ümumrespublika Uşaq forumları keçirilir. BMT Uşaq Fondunun da qeyd etdiyi kimi, Azərbaycanın bu təcrübəsi uşaq liderliyinin reallaşması sahəsində digər ölkələr üçün yaxşı nümunələrdən biridir. BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələrinə əsasən, komitənin təşəbbüsü ilə "Uşaqların internet təhlükəsizliyi" layihəsi çərçivəsində "Valideyn nəzarəti və internet təhlükəsizliyi" proqramı (kidsafe) yaradılıb.

Müxtəlif dövlət qurumları çox vacib layihələr həyata keçirir. Bunlardan "Uşaq qayğı sistemində islahatlar", "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi", "Azərbaycanda erkən yaşlı uşaqların inkişafının monitorinqi üzrə mütəxəssislərin hazırlanması", "Ana südü ilə qidalandırma həftəsi", "Uşaq hüquqlarına dair elektron məlumat bankı"nın yaradılması, Uşaq və Ailələrə Dəstək Mərkəzlərində mövcud elektron məlumat bazasının yenidən qurulması və başqa layihələrin adlarını çəkmək olar. Mərkəzlərdə hesabatlılıq sisteminin təkmilləşdirilməsi məqsədilə UNİCEF-in dəstəyi ilə keys menecment üzrə yeni elektron CES məlumat bazasının qurulması istiqamətində birgə iş aparılır. Burada, həmçinin yeni təqdim olunan SİB-R sistemi 0-90 arası şəxsin davranışı haqqında qrafiklər əsasında ətraflı informasiya əldə etməyə imkan yaradacaq. Qeyd edək ki, bu elektron məlumat bazası MDB ölkələri arasında yalnız Azərbaycanda mövcuddur. Belə önəmli layihələr maarifləndirmə uşaq hüquqlarının müdafiəsi işini daha da gücləndirir, həm də yaxşı nəticələr verməkdədir.

KİV-lə əməkdaşlıq çox vacib məsələdir. Biz ildə 4 dəfə monitorinq keçiririk. Həmin monitorinqlər zamanı jurnalistlərin bu sahədə bilik və bacarıqlarının kifayət qədər olmadığı üçün bir neçə maarifləndirici təlimlər keçirmişik. Komitə jurnalistlər üçün yerli ekspertlərin iştirakı ilə 2014-cü ildə "Azərbaycan ailə modelinin KİV-də düzgün tanıdılmasının əhəmiyyəti", 2015- ci ildə "Məişət zorakılığı KİV-də necə işıqlandırılmalıdır", 2016-cı ildə "Gender məsələləri və selektiv abort problemi KİV-də", həmçinin Komitə və Avropa İttifaqının TAİEX proqramının birgə əməkdaşlığı çərçivəsində 2017-ci ildə "Gender problemləri və media" mövzusunda ikigünlük beynəlxalq seminar keçirib. Seminar çərçivəsində "Avropa İttifaqında gender bərabərliyinin media vasitəsilə təbliği", "Azərbaycan və Avropa İttifaqı ölkələri mediasında qadınların balanslı və stereotiplərdən uzaq təsvirinin ən uğurlu nümunələri", "Məişət və gender əsaslı zorakılıqlar zamanı qadınların kütləvi mətbuatda balanslı və stereotiplərdən uzaq təsvirinin yaradılmasının təbliği", "Azərbaycanda kütləvi mətbuatda və kütləvi mətbuat vasitəsilə gender bərabərliyinin təbliği sahəsində atıla biləcək növbəti addımlar" adlı 4 sessiya keçirilib. 2019-cu ilin yanvar ayında Avropa Şurasının və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Mediada gender bərabərliyi" mövzusunda üçgünlük təlim keçirilib. Eyni zamanda, gender stereotiplərin aradan qaldırılması üzrə, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində aktiv fəaliyyət göstərən jurnalistlərin stimullaşdırılması üçün ildə bir dəfə müsabiqə keçirir və fərqlənən jurnalistləri mükafatlandırırıq.

Bizim əsas istiqamətimiz əhalini maarifləndirməkdir. Bu, çox vacib məsələdir. Xüsusilə indiki şəraitdə ki, dünyada müxtəlif proseslər gedir, qloballaşma adı ilə faktiki olaraq eyniləşmə siyasəti aparılır, həmçinin bu prosesin neqativ tendensiyaları insanların düşüncəsinə təsir edir, yad elementlər yaranır, kütləvi informasiya vasitələri ilə müxtəlif təxribatlar yaradılır. İmkan vermək olmaz ki, bu boşluqlar ailələrimizə, gənclərimizə mənfi təsir göstərsin. Bu baxımdan maarifləndirmə layihələri müxtəlif mövzulara həsr edilir, cəmiyyətdə gənclərin və qadınların rolu qabardılır. Qadın ailənin möhkəmliyini, onun bütövlüyünü qoruyan, yeni nəsli böyüdən, tərbiyə edəndir. O, cəmiyyətin inkişafında, dövlət quruculuğunda xüsusi rol oynayan xanımdır, vətəndaşdır. Bizim qadınlarımız istənilən sahədə uğur qazanmaqla yanaşı, çox gözəl ailə sahibi olmağı və Vətənə layiqli vətəndaşlar yetişdirməyi bacarırlar. Uşaqlar və gənclər isə bizim gələcəyimizdir. Onlar sosial həyatda daha fəal iştirak etməli, ölkəmizin inkişafına, gələcəyinə öz töhfələrini verməlidirlər.

Prezident İlham Əliyev öz çıxışlarında vurğulayıb ki, "Qara qızılı insan kapitalına çevirmək, sadəcə, şüar deyil, bu, reallıqdır". İnsan kapitalının inkişafı hər bir ölkənin, o cümlədən Azərbaycanın qarşısında dayanan əsas məqsəddir. Çünki insan kapitalına qoyulan investisiya bütövlükdə insanların rifahı, dövlətin inkişafı deməkdir. Məhz bu baxımdan Azərbaycan Respublikasında dövlət tərəfindən ailə institutunun möhkəmləndirilməsi, qadın hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi məqsədilə mühüm tədbirlər görülməkdədir və bu, gələcəkdə də davam etdiriləcək.

**AZƏRTAC**

# MƏMMƏD SƏİD ORDUBADİ İRSİNƏ DÖVLƏT QAYĞISININ PARLAQ TƏZAHÜRÜ



Poetik təfəkkürə, yüksək əxlaqi keyfiyyətlərə və milli-mənəvi dəyərlərə malik olan Azərbaycan xalqının gənc nəslin tərbiyəsi ilə bağlı zəngin pedaqoji fikirləri mövcuddur. Bu mənəvi və elmi-əxlaqi təcrübəni öyrənmək, onları təfəkkür süzgəcindən keçirərək müasir gəncliyin tərbiyəsində istifadə etmək olduqca əhəmiyyətlidir. Azərbaycan ədəbi irsinin malik olduğu qabaqcıl görkəmli şəxsiyyətlərin maarifçilik ideyaları ilə bağlı fikirlərinin öyrənilməsinə bu gün böyük ehtiyac vardır. Onların sırasında Məmməd Səid Ordubadinin zəngin ədəbi irsi, maarifçilik görüşləri də bu məxəzlər içərisində özünəməxsus yer tutur.

M.S.Ordubadi yaradıcılığı, onun Azərbaycan xalqı və ədəbiyyatı qarşısındakı xidmətləri hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1972-ci ildə onun 100 illik yubileyi təntənəli şəkildə qeyd edilmiş, Ordubad şəhərində bir zamanlar yaşadığı ata ocağı ev-muzeyinə çevrilmiş, 1979-cu ildə isə Bakıda ədibin yaradıcılıq yadigarlarının məkanı olan Xatirə Muzeyi yaradılmışdır. Bundan başqa, xatirəsini əbədiləşdirmək üçün ölkəmizdə, o cümlədən Naxçıvanda bir neçə küçəyə, mədəniyyət müəssisələrinə, kitabxanalara Ordubadinin adı verilmiş, onun adını daşıyan Naxçıvan Muxtar Respublika Kitabxanasının qarşısında yazıçının büstü qoyulmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev vaxtilə Məmməd Səid Ordubadinin ictimai-siyasi görüşlərini səciyyələndirərək demişdir: "Məmməd Səid Ordubadinin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Məmməd Səid Ordubadinin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur".

Məmməd Səid Ordubadinin zəngin pedaqoji irsi bu gün də böyüməkdə olan nəslin təlim-tərbiyəsində mühüm rol oynayır. Bu mənada Azərbaycanın ictimai-ədəbi fikir tarixində onun xüsusi yeri vardır. Ömrünün sonuna kimi ədəbi yaradıcılıqla məşğul olan Məmməd Səid Ordubadi XX əsrin əvvəllərində ictimai-pedaqoji hərəkatın əsas aparıcı qüvvələrindən olmaqla yanaşı, demokratik fikirli maarifçilərlə çiyin-çiyinə çalışmış, dövrünün mühüm pedaqoji məsələlərini də bu əsaslarla həll etmək uğrunda ciddi mübarizə aparmışdır.

Məmməd Səid Ordubadinin irsinin öyrənilməsi tarixilik və müasirlik nöqteyi-nəzərdən zəruridir. Ədibin fikirləri gənc nəslə mənəvi-əxlaqi keyfiyyətlər aşılamaqda onları vətənpərvərlik ruhunda tərbiyə etməkdə xüsusi əhəmiyyətə malikdir.

Məmməd Səid Ordubadi özünün ədəbi yaradıcılığı, maarifçilik görüşləri ilə təkcə Azərbaycanda deyil, yaxın və orta Şərqdə də tanınmış ədəbi simalardan idi. "Dumanlı Təbriz", "Gizli Bakı", "Döyüşən şəhər", "Qılınc və qələm" romanları hələ müəllifin sağlığında ona böyük şöhrət qazandırmışdı. Bu əsərlərlə o, Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi hesab olunurdu. M.S.Ordubadinin, mətbuatda işıq üzü görmüş ilk poetik nümunələrində, eləcə də 1905-ci il Birinci Rus inqilabına qədərki şeirlərinin əsas ideyası cəmiyyətdə mədəni geriliyə qarşı mübarizə, qəflət və cəhalətin tənqidi, eyni zamanda elmin, təhsilin təbliği olmuşdur. Bütün yaradıcılığı boyu M.S.Ordubadi bu amallarla yaşamış, yazıb-yaratmışdır.

Ermənilərin 1905-1907-ci illərdə Azərbaycanın müxtəlif regionlarında soydaşlarımıza qarşı törətdikləri qanlı cinayətlər, soyqırım faciələri, bu hadisələrin şahidi olan insanlardan aldığı məktub və məlumatlar əsasında M.S.Ordubadi "Qanlı illər" adlı qiymətli bir salnamə yaratmışdır.

Ulu öndər Heydər Əliyevin ədəbiyyatımıza, ədəbi şəxsiyyətlərə göstərdiyi qayğı bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu mənada onun 2012-ci il 10 aprel tarixli Sərəncamı ilə yazıçı-dramaturq, şair-publisist, ictimai xadim Məmməd Səid Ordubadinin anadan olmasının 140 illik yubileyinin ölkəmizdə geniş qeyd olunması da bu diqqətin bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikasında da ədibin irsinə dövlət səviyyəsində daim yüksək qayğı göstərilmişdir. Ali Məclis sədrinin 17 aprel 2012-ci il tarixli Sərəncamı ilə "Məmməd Səid Ordubadinin 140 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilmiş və buna əsasən də ədibin əsərlərinin bir qismi yenidən nəşr edilmişdir. Bundan başqa yazıçının Ordubad şəhərindəki ev-muzeyi əsaslı təmir olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların siyahısı"na Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanının daxil edilməsi Ordubadi irsinə verilən dəyərin bariz nümunəsi, gənc nəslə veriləcək ən böyük töhfələrdən biridir. İctimai hadisələrin son dərəcə maraqlı təsvir olunduğu "Qılınc və qələm" Ordubadi yaradıcılığına xas macəraçılıq romanı üslubunda yazılmışdır. Maraqlı və yığcam quruluşlu bu əsər Ordubadinin zəngin ədəbi irsində, şübhəsiz, mühüm yer tutan, oxucularda Nizami və onun dövrünü öyrənməyə böyük həvəs oyadan romandır. Onun görkəmli ədib barədə söylədiyi aşağıdakı fikirləri də M.S.Ordubadi irsinə verilən dəyəri dolğun şəkildə ifadə edir: "Məmməd Səid Ordubadinin zəngin yaradıcılığı millilik və bəşəriliyi, yüksək vətəndaşlıq qayəsini, qabaqcıl ideyaları özündə birləşdirən azərbaycançılıq məktəbidir. Bu məktəbin tariximizdə və ədəbiyyatımızda oynadığı rol yüksək qiymətə layiqdir".

**Ruhəngiz ƏLİYEVA,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü,**
**Naxçıvan Müəllimlər İnstitutunun müəllimi.**

# Qubada orta tibb kadrları hazırlanır

Qədim Quba bu gün həm də elm, təhsil mərkəzidir. Rayonda Azərbaycan Dövlət Pedaqoji Universitetinin filialı, Meyvəçilik-Çayçılıq Elmi-Tədqiqat İnstitutu, Sosial-İqtisad Kolleci, peşə məktəbi, musiqi məktəbləri və sairə təhsil ocaqları fəaliyyət göstərir.

2014-cü ildən bu siyahıya daha bir orta ixtisas təhsili müəssisəsi - Tibb Kolleci də əlavə olunub. Şimal regionunun səhiyyə müəssisələri üçün orta tibb kadrları hazırlayan kollec fəaliyyətini getdikcə genişləndirir. Təhsil müəssisəsinin fəaliyyəti barədə **kollecin direktoru Mikayıl Mirzəliyev** deyir: "Rayonumuzda Tibb Kolleci "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasına əsasən Səhiyyə Nazirliyinin təklifi ilə səhiyyə sahəsində tibb kadrlarının çatışmazlığının aradan qaldırılması məqsədilə yaradılmışdır. Qeyd edim ki, Kollec əsaslı surətdə təmir olunmuş 3 mərtəbəli binada yerləşir. Burada tədrisin təşkili üçün hər cür şərait vardır. İşıqlı, geniş mühazirə otaqları, fənn kabinetləri, müasir tədris avadanlıqları tələbələrin sərəncamındadır. Kollec 2014-cü ildə "Tibb bacısı işi" ixtisasına 40 nəfər tələbənin qəbulu ilə başlamışdır. 2018-2019-cu illərdə kollecin fəaliyyəti bir qədər də genişlənmiş, burada "Mamalıq" ixtisası üzrə yeni qrup açılmışdır. Cari dərs ilində bu qrupa 25 nəfər tələbə qəbul olunmuşdur. Hazırda kollecdə 2 fakültə — "Tibb bacısı işi" və "Mamalıq" fakültələrində 140 nəfər tələbə təhsil alır. Tələbə kontingenti əsasən Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarını əhatə edir. Ötən 3 il ərzində kollecin 2 buraxılışı olmuş, məktəbi birinci buraxılışda 23 nəfər, ikinci buraxılışda isə 39 nəfər bitirmişdir. Hazırlanan orta tibb kadrları təyinatla Şimal regionunun səhiyyə ocaqlarında çalışırlar".







Direktor deyir ki, bu il kolleci daha 38 nəfər bitirəcəkdir. Yeri gəlmişkən qeyd edim ki, kollecin yaxınlığında yerləşən və yenicə istifadəyə verilmiş rayon Mərkəzi Xəstəxanası tələbələr üçün tədris-təcrübə bazasıdır. Yeni üslubda tikilmiş, ən müasir tibbi avadanlıqlarla təmin olunmuş bu xəstəxanada tələbələrimizin praktiki məşğələlərinin daha səmərəli keçirməsi üçün çox gözəl şərait vardır. Onu da qeyd etmək istəyirəm ki, fənn müəllimlərinin və praktiki məşğələ rəhbərlərinin əksəriyyəti həmin bu xəstəxananın bacarıqlı həkimləridir. Mərkəzi Xəstəxananın cərrahiyyə şöbəsinin müdiri, tibb elmləri namizədi Gəray Qurbanov, təcrübəli pediatr Mövsüm Hümmətov, farmakoloq Gültəkin Məmmədova, reanimatoloqlar Vüsalə Fidayeva, Elşən Heydərli və başqaları tələbələrə öz təcrübi bilik və bacarıqlarını aşılayırlar. Yeri gəlmişkən onu da deyim ki, tələbələrimiz bu günlərdə növbəti qış-imtahan sessiyasını müvəffəqiyyətlə başa çatdırmışlar.

Pedaqoji kollektivimiz tədrisin keyfiyyətinin daha da yüksəldilməsi, tələbələrin praktiki vərdişlərə daha effektli yiyələnmələri üçün bundan sonra da bilik və bacarığımızı sərf edəcəkdir.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

## *Səhiyyə xəbərləri*

### Ürək-damar cərrahiyyəsinə dair növbəti seminar keçirilib

Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında rezidentlər üçün ürək-damar cərrahiyyəsinə dair növbəti seminar keçirilib.

ATU-nun ürək-damar cərrahiyyəsi şöbəsinin müdiri, uzman həkim Mirəli Məcidov qeyd edib ki, anastomoz ürək-damar cərrahiyyəsində çox önəmli yerlərdən birini tutur. Qeyd edib ki, anastomoz texnikasının sırf ürək-damar cərrahiyyəsinə aid olmasına baxmayaraq, rezidentlərin hər biri bu üsul haqqında həm nəzəri, həm də praktiki bacarıqlara malik olmalıdır. Çünki praktikada elə hallar olur ki, yalnız cərrahiyyə sahəsinin həkimləri yox, digər sahə mütəxəssislərinə də damar anastomozları, damarlara müdaxilə qaydalarını bilmək lazım olur.

Tədris Cərrahiyyə Klinikasının rezidentlər üzrə məsul şəxsi, İ cərrahi xəstəliklər kafedrasının assistenti, t.ü.f.d. Azər Hümmətov isə qeyd edib ki, mütəmadi olaraq keçirilən kursların əsas məqsədi rezidentlərə əsas ilkin cərrahi bacarıqlar, həmçinin laparoskopik alətlərlə tanışlıq və laparoskopik bacarıqların öyrədilməsidir.

Seminarda Klinikanın mütəxəssisləri tərəfindən damar anastomoz qaydaları haqqında, ürək şuntlama əməliyyatlarında anastomozların aparılam qaydaları, istifadə olunan qreftlərdən, konyvitlər barədə məlumat verilib. Anastomoz zamanı baş verə biləcək fəsadlar, ağırlaşmalar, onların təfərrüatından danışılıb.

### "Azərbaycan Respublikası əhalisinin tibbi müayinələrdən keçirilməsi barədə" sərəncam imzalanmışdır

Səhiyyə nazirinin müavini Nigar Əliyeva "Azərbaycan Respublikası əhalisinin tibbi müayinələrdən keçirilməsi barədə" 30.01.2018-ci il tarixli sərəncam imzalamışdır.

Sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin tapşırığını rəhbər tutaraq 2018-ci ilin fevral ayının 12-dən may ayının 12-dək ölkə əhalisinin tibbi müayinələrdən keçirilməsi təşkil ediləcək. Respublikanın şəhər və rayonlarının tibb idarə və müəssisələrinin rəhbərlərinə əhalinin tibbi müayinələrdən keçirilməsinin icrasını şəxsi nəzarətə götürmək tapşırılır.

Sərəncamda xəstəlik aşkar edilmiş şəxslərin yerlərdə, zərurət yarandığı hallarda isə Bakı şəhərində və bölgələrdə fəaliyyət göstərən ixtisaslaşdırılmış tibb müəssisələrində əlavə müayinə və müalicəyə cəlb olunması, digər sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Respublika əhəmiyyətli tibb müəssisələrinin rəhbərlərinə mütəxəssislərdən ibarət qrupların müntəzəm olaraq regionlara ezam olunması tapşırılır.

**Səhiyyə Nazirliyinin**
**Mətbuat Xidməti.**

# Gənclər Günü qeyd olundu

## Gəncə

Gəncədə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə 2 fevral - Gənclər Günü böyük təmtəraqla qeyd edildi. Tədbirdə ziyalılar, təhsil, səhiyyə, mədəniyyət, idman sahəsində çalışan fəal gənclər və tələbələr iştirak edirdilər. İlk öncə gənclər təşkilatlarının fəaliyyətini əks etdirən sərgiyə baxış keçirildi.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbiri, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov açaraq, gəncləri bu əziz bayram günü münasibətilə təbrik edərək, ən xoş arzularını çatdırdı. Bildirdi ki, 1997-cı ildə əbədiyaşar Heydər Əliyevin Sərəncamı ilə təsis olunan bu bayram, ümummilli liderin gəncliyə göstərdiyi diqqət və qayğının bir nümunəsidir. Ölkəmizdə hər bir sahədə qazanılan uğur dövlətimizin yüksək potensiala malik olduğunu göstərir. Bu uğurların əldə edilməsində gəncliyin xüsusi rolu vardır. Çünki gənclər cəmiyyətin bütün sferalarında təmsil olunmaqla yanaşı, artıq aparıcı qüvvəyə çevriliblər. İndi Azərbaycanda gənclər siyasəti dövlətin mühüm tərkib hissəsidir. Ölkə Prezidenti cənab İlham Əliyev gənclərlə hər görüşündə, keçirilən forumlarda dəfələrlə bildirib ki, gəncliyə verilən imkanlar dövlətimizin sabahı üçündür.

Tədbirdə çıxış edən Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşviq Cəfərov ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasətinin Azərbaycan gəncliyinin inkişafına təkan verdiyini vurğulayaraq bildirdi ki, ümumilikdə şəhərdə gənclərin sayı 93 808 nəfərdir. Bu isə şəhər əhalisinin 31 %-ni təşkil edir. Gəncədə 3 universitet və 3 kollec fəaliyyət göstərir ki, burada da ümumilikdə 17 213 tələbə təhsil alır. Gəncədə 6 Tələbə Gənclər Təşkilatı, 4 klub və 9 ictimai birlik fəaliyyət göstərir. Ötən il şəhərdə 165 tədbir və layihə reallaşdırılıb ki, burada da 22 mindən artıq gənc iştirak edib.

Çıxış edən Gəncə şəhər Gənclər Evinin direktoru Amil Qurbanov "Gələcəyə Körpü" GİB-nin icraçı direktoru Hüseynxan Hacızadə, Gəncə Musiqi Kollecinin TGT sədri Lalə Məmmədova, Azərbaycan Dövlət Aqrar Universitetinin TGT sədri Valeh Əsədov gənclər üçün yaradılan şəraitdən söz açıb, onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Tədbirin sonunda Gəncə şəhərinin ictimai həyatında fəal iştirakına və 2 fevral Gənclər Günü münasibətilə 18 gənc, "Gələcəyə Körpü" GİB, ADAU və Musiqi Kollecinin TGT-ləri Gəncə Şəhər İcra Hakimiyyəti başçısının "Fəxri Fərman"ları ilə təltif olundular.

## Daşkəsən

Daşkəsən Şəhər Mədəniyyət Mərkəzində 2 fevral - Azərbaycan Gəncləri Gününün 22-ci ildönümü ilə bağlı "dəyirmi masa" keçirilmişdir. Gənclər Günü münasibətilə Daşkəsən Rayon İcra Hakimiyyətinin, rayon gənclər və idman idarəsinin və mədəniyyət mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirə rayonun bütün yaşayış məntəqələrini əhatə etməklə ötən il müxtəlif nominasiyalar üzrə qalib olmuş gənclər dəvət olunmuşdular.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Samir Həsənov çıxış edərək bildirdi ki, gənclər bizim gələcəyimizdir, biz onların inkişafı, vətənpərvərlik tərbiyəsinin formalaşdırılması, istedadlı gənclərin aşkara çıxarılması istiqamətində mühüm işlər görülür. Azərbaycan gəncliyi bugünkü uğurlarına görə ulu öndərə daim borclu və minnətdardır. Məhz əbədiyaşar ulu öndərin təşəbbüsü və sərəncamları ilə 1994-cü ildə Azərbaycan Gənclər və İdman Nazirliyi yaradılmışdır. Heydər Əliyevin özünün bilavasitə iştirakı ilə bir neçə dəfə Azərbaycan gənclərinin forumu keçirilmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev Azərbaycan gəncliyinin ehtiyac və qayğıları, problemləri ilə həmişə maraqlanmış, onlara daim kömək göstərmişdir. Bu gün "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı uğurla icra olunmaqdadır.

Gənclər və İdman İdarəsinin rəisi Samir Həsənov 2018-ci il ərzində idarə tərəfindən həyata keçirilən tədbirlər və əldə olunan nailiyyətlər barədə də ətraflı məruzə etdi.

Daşkəsən Rayon Mədəniyyət Mərkəzinin kollektivi adından çıxış edən Mətanət Abdullayeva qeyd etdi ki, XX əsrdə Azərbaycan xalqının tərəqqisi və sivil dünyaya qovuşması üçün müstəsna tarixi xidmətlər göstərilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin xalqa arxalanan, ondan güc alan fəaliyyətində gəncliyə münasibəti həmişə xüsusi seçilmişdir. Bu böyük insan respublikamızın inkişafını heç vaxt gənclərsiz təsəvvür etməmiş, gəncliyin parlaq zəkasını, qaynar və tükənməz enerjisini vətənimizin hərtərəfli yüksəlişinə səfərbər etmişdir.

Gənclər Günü ilə bağlı keçirilən "dəyirmi masa"da Daşkəsən RİH-in sektor müdiri Vüqar Məmmədov çıxış edərək RİH-in başçısı Əhəd Abıyevin səmimi təbriklərini gənclərə çatdıraraq onları təbrik etdi. Vurğuladı ki, bu gün respublikamızın hər yerində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən gənclər siyasəti və idman sahəsində yerli və beynəlxalq əhəmiyyətli layihələr həyata keçirilir. 17 oktyabr 2014-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birlikdə rayonumuza tarixi səfər etmiş, bir çox inzibati binaların, o cümlədən Daşkəsən Gənclərin Təlim və İstirahət Mərkəzinin açılışında iştirak etmişlər. Təlim və İstirahət Mərkəzində gənclər üçün hər cür şərait yaradılmışdır.

Məruzə ətrafında gənclər adından çıxış edən Aşağı Daşkəsən kənd tam orta məktəbinin müəllimi Səbinə Qədirova, Tarix-diyarşünaslıq muzeyinin direktoru Günel Qəribova, A.Mürsəlov adına 2 saylı tam orta məktəbin 10-cu sinif şagirdləri Nigar Məmmədzadə, Rəqsanə Qurbanlı və digərləri çıxış etmiş, Heydər Əliyev ideyalarının Azərbaycanda uğurla həyata keçirilməsi üçün bütün gənclərimizi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında daha sıx birləşməyə çağırmışlar.

Tədbirin sonunda rayonun ictimai həyatında, müxtəlif yarışlarda, mədəni-kütləvi tədbirlərdə fərqlənən bir qrup gəncə rayon Gənclər və İdman İdarəsi adından qiymətli hədiyyələr verilmişdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

## İsmayıllı

İsmayıllı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və rayon gənclər və idman idarəsinin fəal iştirakı ilə şəhər Mədəniyyət Mərkəzində 2 Fevral - Azərbaycan Gəncləri Günü təntənəli tədbirlə qeyd olunub.

İştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, sonra gənclərin əl işlərindən, yaradıcılıq nümunələrindən təşkil olunmuş sərgiyə baxıblar.

Bayram tədbirində rayonda fəaliyyət göstərən gənclərlə yanaşı, İsmayıllı məktəblərinin yetirmələri olan gənclər - "Modern Group" şirkətlər qrupunun baş direktoru Anar Bayramov, "Güvən" klinikasının şöbə müdiri, uzman həkim Fuad Bəşirov, Oğuz rayon Prokurorluğunun müstəntiqi Mətanət Səmədli, 695-700 balla universitetlərə qəbul olunmuş və qızıl medallı tələbələr iştirak ediblər.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov bayram iştirakçılarının timsalında rayonun bütün gənclərini Azərbaycan Gəncləri Günü münasibətilə ürəkdən təbrik edib, ölkənin, rayonun inkişafında onlara yeni-yeni uğurlar arzulayıb. Qeyd edib ki, ulu öndər gəncliyi ölkənin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsinə çevirdi. Fəxr ediləsi haldır ki, İsmayıllı gəncləri də dövlət gənclər siyasətinin həyata keçirilməsində, cənab Prezident İlham Əliyevin sərəncam, tapşırıq və tövsiyələrinin icrasında fəal mövqe tuturlar.

İsmayıllı Rayon Gənclər və İdman İdarəsinin rəisi Taleh Salehov 2 Fevral - Azərbaycan Gəncləri Günü barədə danışıb, İsmayıllı gənclərini ulu öndərin şərəfli adı ilə bağlı olan bu tarixi gün, bu bayram münasibətilə təbrik edib.

T.Salehov çıxışının sonunda dövlət gənclər siyasətinin həyata keçirilməsində daha fəal iştirak edən bir qrup gəncə Fəxri diplom və hədiyyələri təqdim edib.

Yeni Azərbaycan Partiyası sıralarına yeni daxil olmuş bir neçə gəncə üzvlük vəsiqəsi təqdim olunub.

Əməkdar müəllim, təhsil veteranı Şəfaqət Rəsulov gəncləri təbrik edib, Azərbaycan həyatının daha da zənginləşməsində, təhsildə, hərbi vərdişlərə yiyələnməkdə onlara yeni-yeni uğurlar arzulayıb. 2018-ci ilin noyabr ayında keçirilən Gənclər Forumunun iştirakçısı Tacəddin İbadov, gənc müəllim Aytac Ziyadxanlı, YAP rayon təşkilatı gənclər birliyinin sədri Qönçə Ağazadə və başqaları çıxış ediblər.

İsmayıllı gəncləri onlar üçün yaratdığı zəngin həyata, mənəvi inkişaf şəraitinə görə dövlətə, Prezident İlham Əliyevə minnətdar olaraq əsl bayram sevinci yaşayıblar.

**Rasim AMANOV,**
**"Respublika".**

## Sabirabad

Sabirabad rayon Mədəniyyət Mərkəzində "Azərbaycan gəncliyi: gənclik və tərəqqi" mövzusunda "dəyirmi masa" keçirilib.

2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə təşkil olunan tədbirdə Sabirabad Regional Mədəniyyət İdarəsinin məsləhətçiləri Aynur İsmayılova, Ağalar Ağammədov, Sabirabad rayon Mədəniyyət Mərkəzinin direktoru Mirtaleh Ağazadə, Sabirabad rayon Tarix-diyarşünaslıq muzeyinin direktoru Şükufə Əsgərova və fəal gənclər çıxış edərək, ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətindən söz açıblar.

Çıxış edənlər 2 fevral gününün Gənclər Günü kimi elan olunmasının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu, məhz onun hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsasının qoyulduğunu, 1994-cü ildə dövlət gənclər siyasətini icra edən Gənclər və İdman Nazirliyinin yaradıldığını,1997-ci ildən Prezident sərəncamı ilə 2 fevral tarixinin Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başlandığını qeyd etmişlər. Natiqlər əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kursun bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyindən söhbət açmışlar.

**Mədəniyyət nazirliyinin**
**mətbuat xidməti**

## Xocavənd

Ermənistan silahlı qüvvələri işğal etdikləri Azərbaycan torpaqlarından təmas xəttindəki atəşkəs rejimini demək olar ki, hər gün pozur, dinc insanları atəşə tutur, adamların rahat yaşamasına mane olmağa cəhd edirlər. Əlbəttə, bu, narahatlıq yaratsa da cəbhə bölgəsində yaşayan hər kəs Milli Ordumuza güvənir, ordu ilə xalqın sıx birliyi düşmənə ən layiqli cavab olur.

Bu barədə Xocavənd qəsəbəsində 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə keçirilən tədbirdə ətraflı danışılıb. Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov tədbirdə çıxış edərək gəncləri əlamətdar gün münasibətilə təbrik edib, dövlətimizin gənclərlə iş və idman sahəsində yürütdüyü siyasətdən danışıb.

Gənclər və İdman İdarəsinin rəisi Aslan Quliyev çıxışında gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərdən bəhs edib. Bildirib ki, idarə tərəfindən həyata keçirilən tədbirlər gənclərin maraqlarına, mənafe və ehtiyaclarına uyğunlaşdırılıb. İdman və bədən tərbiyəsinə daha geniş kütlənin cəlb edilməsi, gənclərin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsi, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə, ictimai-siyasi fəallığının artmasına kömək göstərilməsi, onlarda vətənpərvərlik və Azərbaycan dövlətçiliyinə sədaqət hisslərinin yüksəldilməsi kimi məsələlər hər zaman idarənin diqqət mərkəzindədir.

Diqqətə çatdırılıb ki, bugünkü gənclərin həyatı çox sürətli və dinamik cərəyan edən tarixi bir zamana təsadüf edir. Belə bir çətin və məsuliyyətli dövrdə cəmiyyətin aparıcı qüvvəsi olan gənclərin üzərinə böyük və şərəfli vəzifələr düşür.

2018-ci ildə yüksək nailiyyətlər əldə edən, fəallığı ilə seçilən bir qrup gəncə Fəxri fərman və qiymətli hədiyyələr verilib.

**Salman ALIOĞLU,**
**"Respublika".**

## Qazax

